# Sülh və insan hüquqları

**Müasir dövrdə hər bir cəmiyyətin inkişafı, habelə insan hüquqlarının səmərəli təmini üçün sülh və əmin-amanlıq mühüm rol oynayır. Belə ki, hər bir cəmiyyətin, bütövlükdə isə bəşəriyyətin azadlıq, bərabərlik və ədalətlə yanaşı, ən çox arzu etdiyi dəyərlərdən biri də məhz ədalətli sülhün mövcud olmasıdır.**

Bütün tarix boyu bəşəriyyəti düşündürən ən ümdə məsələlərdən biri də sülhün qorunması, insanların əmin-amanlıqda yaşaması, amansız müharibələrin, hər çür zorakılığın dayandırılması arzusudur.

Qeyd etmək lazımdır ki, Beynəlxalq Sülh Gününün əsası hələ 1981-ci ilin sentyabrında Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən qoyulmuşdur. Əvvəllər bu əlamətdar gün hər il sentyabr ayının 3-cü çərşənbə axşamı qeyd edilirdi. Lakin 20 il sonra, 2001-ci ildə Birləşmiş Krallıq tərəfindən təklif olunan qətnamə ilə 2002-ci ildə BMT-nin Baş Assambleyası tərəfindən yekdilliklə Sülh günü üçün 21 sentyabr dəqiq tarix kimi müəyyənləşdirilmiş və bu tarixin “qlobal atəşkəs və qeyri-zorakılıq, həmçinin bütün xalqları və insanları gün ərzində hərbi əməliyyatları dayandırmağa çağıran gün” olaraq qeyd edilməsi qərara alınmışdır.

Yeri gəlmişkən, 2018-ci ildə Beynəlxalq Sülh Günü — “Sülh hüququ: Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi” devizi altında keçirilib. Çünki bu il tarixi əhəmiyyət daşıyan Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi qeyd olunur.

BMT hər il olduğu kimi, bu il də bütün ölkələri və xalqları Beynəlxalq Sülh Günü münasibətilə hərbi əməliyyatların dayandırılmasına və sülhlə bağlı ictimai məlumatlandırma formatlı bayram tədbirlərini keçirməyə çağırır.

Məlumdur ki, Ermənistanın Azərbaycana qarşı silahlı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizdən çoxu işğal olunmuş, bir milyondan artıq soydaşımız öz doğma ata-baba yurdlarından zorla qovularaq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, təhsil, səhiyyə, mədəniyyət ocaqlarımız, tarixi-dini abidələrimiz tamamilə dağıdılaraq yerlə-yeksan edilmiş, terrora məruz qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi və xahişi ilə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqaviləni imzalamaqla müharibənin müvəqqəti də olsa dayandırılmasına nail olmuşdur. Bu isə təbii ki, insan tələfatının qarşısının alınması ilə bərabər, regionda sabitliyin yaranması, ölkəmizin iqtisadi və hərbi gücünün artmasına səbəb olmuşdur.

BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağla bağlı münaqişənin həll edilməsi, regionda sülh və təhlükəsizliyə təhlükə yaradan bütün hərbi əməliyyatların dayandırılması, atəşkəsin təmin edilməsi və düşmənçilik aktlarının dərhal dayandırılmasını, həmçinin bütün işğalçı qüvvələrin Azərbaycan torpaqlarından çıxarılmasını nəzərdə tutan BMT Baş Məclisi tərəfindən qəbul edilmiş 14 mart 2008-ci il tarixli qətnaməsinin tələbləri yerinə yetirilmir. Sülhə və təhlükəsizliyə saymazyana münasibət bəslənilir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının preambula hissəsində ümumbəşəri dəyərlərə sadiq olaraq, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ülvi niyyəti kimi təsbit olunmuşdur.

Təqdirəlayiq haldır ki, əsası ümummilli liderimiz tərəfindən qoyulmuş sülhsevər siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan Azərbaycan dövləti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl işlər hazırda da əzmlə və uğurla davam etdirilməkdədir. Bu baxımdan, Fondun vitse-prezidenti Leyla Əliyevanın gerçəkləşdirdiyi “Xocalıya ədalət!” kampaniyası Xocalı hadisələri barədə dünya ictimaiyyətini məlumatlandırmaq və beynəlxalq-hüquqi tanınmasına nail olmaq məqsədilə görülən tədbirlər Avropa, Asiya, Afrika, Şimali və Cənubi Amerika ölkələri tərəfindən Xocalı soyqırımının tanınmasında mühüm əhəmiyyətə malikdir.

Ölkə Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının 4.10-cu bəndində “Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi” aidiyyəti qurumlar üçün bir vəzifə kimi müəyyən olunmuş və ötən dövr ərzində bu istiqamətdə bir sıra zəruri tədbirlər təşkil edilmişdir.

Ombudsmanın təşəbbüsü ilə ənənəvi olaraq hər il Beynəlxalq Sülh Günü ərəfəsində, yəni avqustun 21-dən sentyabrın 21-dək ölkəmizdə “Sülh aylığı”nın elan edilməsi və bu aylıq çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanları, beynəlxalq təşkilatlar, təhsil müəssisələri, QHT və KİV-lə əməkdaşlıqda respublikamızın hər bir rayon və şəhərlərində ictimaiyyətin fəal iştirakı ilə konfransların, “dəyirmi masa”ların keçirilməsi, müsabiqələrin və sərgilərin təşkil edilməsi əhalinin müxtəlif qrupları arasında hüquq mədəniyyətinin, hüquq düşüncəsinin inkişaf etdirilməsi məqsədini daşımaqla universal dəyərlərin, insan hüquqlarının təbliğinə xidmət edir.

Artıq uğurla başa vurduğumuz “Sülh aylığı” insanlar arasında hüquq mədəniyyəti ilə yanaşı, sülh mədəniyyətini təbliğ etməklə qarşımızda duran BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsi baxımından da əhəmiyyətlidir.

İnsan hüquqları sahəsində həyata keçirdiyimiz tədbirlər ölkəmizdə sülh mədəniyyətinin təbliğinə və inkişafına xidmət edir.

“Sülh aylığı” çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin, Aparatın əməkdaşlarının, Ombudsmanın Gəncə, Şəki, Quba və Cəlilabadda yerləşən və ətraf rayonları əhatə edən regional mərkəzlərinin iştirakı ilə Bakı şəhərində və respublikanın rayonlarında silsilə tədbirlər davam etdirilmiş, bununla bağlı məlumatlar mütəmadi olaraq KİV-lər vasitəsilə yayımlanmışdır.

Ombudsmanın Gəncə Regional Mərkəzinin və İqtisadiyyat Nazirliyi Bakı Biznes Tədris Mərkəzinin Gəncə nümayəndəliyinin birgə təşkilatçılığı ilə Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsili Mərkəzində, habelə Göygöl Rayon İcra Hakimiyyəti ilə birgə həmin rayonun Heydər Əliyev Mərkəzində, Cəlilabad Regional Mərkəzinin və Masallı, Astara, Cəlilabad və Lənkəran rayonları icra hakimiyyətlərinin birgə təşkilatçılığı ilə adı çəkilən rayonlarda, Şəki Regional Mərkəzi tərəfindən Oğuz, Şəki, Qəbələ və Zaqatala rayonlarının bir sıra kəndlərində, həmçinin Quba Regional Mərkəzi tərəfindən Xaçmaz və Quba rayonlarının kəndlərində, eyni zamanda Qubadakı “ASAN Həyat” kompleksində silsilə tədbirlər keçirilmişdir.

Uşaqlar üçün Ümumdünya hərəkatının respublikamızda geniş vüsət aldığı, on səkkiz ilə yaxın müddətdə müntəzəm fəaliyyət göstərən, həmçinin Ombudsmanın uşaq hüquqları üzrə resurs mərkəzi olan Azərbaycan Uşaq və Gənclərin Sülh Şəbəkəsinin və Liderlik Məktəbinin gənc sülh elçilərinin sülh hərəkatının inkişafında və sülh mədəniyyətinin təbliği prosesində fəal iştirakı da uşaq və gənclərin iştirakçılığını təmin edən və bu sahədə formalaşan ən yaxşı təcrübələrdəndir.

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə bir sıra ictimai birliklər tərəfindən sülh və insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif tədbirlər keçirilmişdir.

Aylıq çərçivəsində nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə həyata keçirilməsi və bu prosesdə ictimai iştirakçılığın təmin edilməsi məqsədilə şəhər və rayon icra hakimiyyətlərinə edilmiş müraciətə əsasən regionlarda silsilə maarifləndirmə tədbirləri, inşa və rəsm müsabiqələri, sərgilər və idman yarışları təşkil olunmuşdur.



Ombudsmanın fəaliyyəti dövründə sülh hərəkatının formalaşdırılması, sülh mədəniyyətinin təbliği, bu sahədə əməkdaşlıq, xüsusilə də gənclər arasında sülh təhsili və maarifləndirmə istiqamətlərinə xüsusi diqqət yetirilmiş, o cümlədən beynəlxalq təşkilatlarla qarşılıqlı əlaqələr daha da genişləndirilmişdir.

Ölkə Prezidentinin 2017-ci il 15 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının 2.1.3-cü bəndində gənclər arasında milli-dini dözümlülük, sülhsevərlik, humanizm dəyərlərinin təbliğ edilməsi kimi müvafiq tədbirin də həyata keçirilməsinin bir vəzifə olaraq qarşıya qoyulması bu istiqamətdə görülən işlərin səmərəliliyini və əhatə dairəsini daha da artıracaqdır.

Ombudsman bu günədək fəaliyyəti dövründə 125 bəyanatla çıxış etmiş və onları nüfuzlu beynəlxalq təşkilatlara ünvanlamışdır. Həmin bəyanatlarda Azərbaycan dövlətinin sülhsevər siyasət yürütdüyü, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə, beynəlxalq norma və prinsiplər əsasında, sülh yolu ilə həllinə tərəfdar olduğunu dəfələrlə bəyan etdiyi, lakin təcavüzkar Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamənin tələblərini kobud şəkildə pozmaqda davam etdiyi bildirilmişdir.

Yeri gəlmişkən, Müvəkkil BMT-nin İnsan Hüquqları Şurasının 25-ci sessiyasının münaqişə şəraitində uşaq hüquqları mövzusuna həsr edilmiş iclasında bəyanatla çıxış edərək bildirmişdir ki, müharibə vəziyyətində uşaqların hüquqlarının pozulması BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına, “Müharibə qurbanlarının müdafiəsinə” dair Cenevrə Konvensiyasına və digər beynəlxalq hüquqi sənədlərə, habelə BMT-nin, Avropa Şurasının, Avropa İttifaqının münaqişənin sülh yolu ilə həllinə dair müvafiq qətnamələrinə riayət olunmamasının nəticəsidir.

2016-cı ilin aprel döyüşlərində əldə olunan Qələbənin ardınca, Azərbaycan Ordusunun bu ilin may ayında Şərur rayonu istiqamətində apardığı uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisinin və Şərur rayonunun Günnüt kəndinin işğaldan azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelərin Azərbaycan Ordusunun nəzarəti altına keçməsi də Ordumuzun gücünün, qüdrətinin bariz göstəricisidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə (26 iyun), habelə Bakının işğaldan azad edilməsinin 100 illiyi (15 sentyabr) ilə əlaqədar “Azadlıq” meydanında keçirilən əzəmətli təntənəli hərbi paradlar da ölkəmizin hərbi-sənaye kompleksinin inkişafını və ordumuzun nə qədər güclü olduğunu bir daha sübut edir.

“Sülh aylığı” çərçivəsində keçirilən tədbirlər zamanı bir daha sülhün cəmiyyətimiz üçün önəmi vurğulanmışdır.

Bu aylığın keçirilməsi onu göstərir ki, Müvəkkilin təşəbbüsü ilə ölkəmizdə kütləvilik və ictimai iştirakçılıq təmin edilməklə davamlı olaraq həyata keçirilən bütün tədbirlər əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, hüquqların bərpası və pozuntuların qarşısının alınması istiqamətində müvafiq dövlət qurumları, QHT və KİV-lər, həmçinin beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq, o cümlədən sülh və insan hüquqları mədəniyyətinin formalaşdırılması müsbət təcrübə kimi hər il yeniliklərin və uğurlu nəticələrin əldə olunmasına öz töhfəsini verir və bu sahədə Azərbaycan təcrübəsini daha da inkişaf etdirir.

**Faiq AĞAYEV,**
**Ombudsman Aparatının Hüquqi maarifləndirmə, elmi-analitik, informasiya və beynəlxalq əlaqələr şöbəsinin müdiri.**

Respublika.- 2018.- 30 sentyabr.- S. 7.